

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 6 (21.667)

*11 yanvar 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da İran İslam Respublikasının ölkəmizdəki səfirliyinə gələrək İran İslam Respublikasının sabiq Prezidenti Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar başsağlığı verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Fransa Respublikasının Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin inkişaf və frankofoniya məsələləri üzrə dövlət katibi Jan-Mari Le Guenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyi əminliklə qeyd olunub, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.





## Müasir Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub

***Güclü iqtisadiyyat müasir cəmiyyət quruculuğunun əsas şərtlərindəndir. Bu mənada, vətəndaşlarının rifah və təhlükəsizliyinin təmin olunması üçün müstəqil siyasət yeridərək öz daxili imkanları hesabına iqtisadiyyatını möhkəmləndirən Azərbaycanın uğurları çoxaldıqca onun beynəlxalq aləmdəki nüfuzu da artır, ölkəmiz sürətlə güclü dünya dövlətləri arasına daxil olur.***

Müasir Azərbaycanın ümumi inkişaf mənzərəsində özünəməxsus inkişaf yolu ilə gedən Naxçıvan Muxtar Respublikası iqtisadi və sosial həyatın bütün sahələrində qazandığı uğurlarla diqqətəlayiq bir səviyyəyə çatıb. Təməli sağlam olan müasir Naxçıvan iqtisadiyyatı əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasına dönmədən əməl olunması ilə indiki mərhələyə yüksəlib. Çoxlarına təəccüblü gəlsə də, indi Naxçıvan minik avtomobillərinin istehsal edildiyi, ərazisinin, demək olar ki, tamamında dördüncü nəsil mobil rabitə şəbəkəsinin xidmətlərindən istifadə olunduğu, yaxın regionda ən güclü Günəş Elektrik Stansiyasının işə salındığı, ildə 400 mindən artıq turistin səfər etdiyi, 420 milyon ABŞ dollarından artıq ixracat həcminə çatıldığı bir məkana çevrilib. Bu mənada, ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikada həyata keçirilən yeni quruculuq ünvanlarına yüksək qiymət verərək ***"Mən çox şadam ki, qədim Naxçıvan bu gün yeniləşir, yenidən qurulur, gözəl binalar tikilir, xiyabanlar salınır"***, – deməsi dövlət başçısının muxtar respublikanın inkişafına xüsusi diqqətindən xəbər verir.

Müstəqillik illərində Naxçıvan böyük inkişaf yolu keçib. Bu dövrdə muxtar respublikada daxili imkanlar hesabına yüzlərlə yeni istehsal müəssisələri yaradılıb, region iqtisadiyyatı inkişafının uzunmüddətli bir dövr üçün dayanıqlığı zəmanət altına alınıb. Ötən dövrdə Naxçıvanda həyata keçirilən iqtisadi layihələrlə bərabər, eyni zamanda geniş sosial infrastruktur şəbəkəsi yaradılıb, insanların həyat keyfiyyətinin yüksəldilməsi üçün konkret addımlar atılıb. Muxtar respublikada şəhərlə kənd arasında fərqin azaldılması, yerli xammal və ehtiyatlar hesabına yeni iş yerlərinin yaradılması bu dövrdə diqqət mərkəzində olub, əhali gəlirlərinin artırılması, məşğulluq və məskunlaşma məsələləri dövlətin daimi qayğısına çevrilib. Blokadanın yaratdığı çətinliklər dəf edilərək Naxçıvanda ərzaq və enerji təhlükəsizliyinə tam nail olunması, nəqliyyat-kommunikasiya əlaqələrinin müasirləşdirilməsi, ekoloji vəziyyətin nəzarətdə saxlanılması üçün konkret tədbirlər həyata keçirilib. Bununla da, Şərqlə Qərbin qovşağındakı bu qədim Azərbaycan torpağı həyata keçirilən quruculuq tədbirləri ilə tarixiliklə müasirliyin uğurlu sintezinin yaradıldığı bir məkan kimi hər yerdə şöhrət qazanıb.

Ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiqlik, ölkə Prezidenti cənab İlham Əliyevin göstərdiyi böyük diqqət və qayğı sayəsində keçdiyimiz 2016-cı il də Naxçıvan Muxtar Respublikası üçün uğurlu olub. Ötən il, ümumilikdə, dünya iqtisadiyyatı üçün çətin sınaqlar dövrü olsa da, göstərilən yüksək qayğı sayəsində muxtar respublika iqtisadiyyatının möhkəmləndirilməsi ilə insanların rahat yaşayışının və təhlükəsizliyinin təmin edilməsi, iqtisadi və sosial həyatın bütün sahələrində tərəqqi və inkişaf tempinin qorunub saxlanılması təmin edilib. Muxtar respublikada nizam-intizamın daha da möhkəmləndirilməsinə ayrılan diqqət də bütün bu nailiyyətlərin əldə edilməsində mühüm amil olub.

Naxçıvanda mövcud olan bütün iqtisadi resurslardan səmərəli istifadə üçün zəngin təcrübə var. Nəticədə, yeni iqtisadi dövrün tələblərindən biri olan iqtisadiyyatın şaxələndirilməsi, zəruri sahələrin inkişaf etdirilməsi üçün çevik idarəetmə mexanizmi formalaşdırılıb. Ötən 2016-cı ildə ümumi daxili məhsul istehsalının həcmi bir il öncəki dövrlə müqayisədə artaraq 2 milyard 500 milyon manatdan çox olub, onun hər bir nəfərə düşən həcmi isə 5 min 771 manat təşkil edib ki, bu da 2015-ci ilin müvafiq göstəricisinə nisbətən 3,4 faiz çoxdur. Ümumi daxili məhsul istehsalının 60 faizə qədərinin real sektorun payına düşməsi dayanıqlı inkişafın təmin olunmasına öz təsirini göstərib.

Bazar iqtisadiyyatında azad sahibkarlığın fəaliyyət göstərməsi, onun stimullaşdırılması, təşəbbüskarlığın dəstəklənməsi əsas şərtlərdəndir. Naxçıvan Muxtar Respublikasında özəl bölmənin inkişaf etdirilməsi üçün görülən işlər öz bəhrəsini verib. Ötən il muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə 17 milyon manatdan çox kredit verilib, nəticədə, 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi 87 faizi ötüb. Hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur, 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına və əhali gəlirlərinin artmasına da öz təsirini göstərib. Naxçıvanda əhali məşğulluğu məsələləri də daim dövlətin diqqət mərkəzindədir. Ötən il qəbul edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası üzrə 2 min 818 yeni iş yeri açılıb ki, bunun da 98 faizi daimi iş yerləri olub.

Muxtar Naxçıvan iqtisadiyyatı çoxşaxəlidir. Bu baxımdan muxtar respublika üzrə ümumi daxili məhsulda 28 faizlik payla ilk yeri tutan sənaye sahəsinin inkişafı diqqətdə saxlanılıb, onun ümumi həcmi 942 milyon manatı ötüb. Eyni uğurlar iqtisadiyyatın digər bir mühüm sahəsi olan kənd təsərrüfatında da qazanılıb. Torpaq mülkiyyətçilərinə hər cür köməklik göstərilməsi, əl əməyinin yüngülləşdirilməsi, bu sahədə mütərəqqi yeniliklərin tətbiqi diqqətdə saxlanılıb. Son illər Naxçıvanda müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması, meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dövlət dəstəyinin göstərilməsi, geniş soyuducu anbar və istixana şəbəkəsinin yaradılması, heyvandarlığın inkişafı üçün kompleks tədbirlərin görülməsi, yüksək gəlirli sahə olan arıçılığa xüsusi diqqət yetirilməsi öz bəhrəsini verib, nəticədə, ötən il 429 milyon 448 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2015-ci illə müqayisədə 6 faiz çoxdur.

Ölkə başçısı tərəfindən daim qayğı əhatəsində olan Naxçıvan Muxtar Respublikası iqtisadiyyatına investisiya qoyuluşları həmişə artan dinamika ilə müşahidə olunub. Ötən il də bu mühüm sahə diqqət mərkəzində saxlanılıb. Belə ki, 2016-cı ildə muxtar respublika üzrə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 2015-ci ilə nisbətən 5 faiz artaraq 997 milyon manatdan çox olub. İnvestisiya qoyuluşlarının 921 milyon manatından və ya 92 faizindən bilavasitə tikinti-quraşdırma işlərində istifadə olunması əhalinin mənzil şəraitinin yaxşılaşmasına, abadlaşdırma-bərpa işlərinin genişləndirilməsinə, kənd yerlərində infrastrukturun yenilənməsinə şərait yaradıb, 13 kənd və 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ötən il Naxçıvanda əhalinin içməli su təminatının yaxşılaşdırılması, müasir yol-nəqliyyat sisteminin qurulması da diqqət mərkəzində saxlanılıb. Bu baxımdan ölkə başçısının 2016-cı il 20 may tarixli Sərəncamına əsasən, Babək rayonunun 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulmasının ikinci mərhələsinin başa çatdırılması ötən ilin yaddaqalan hadisələrindəndir.

*İqtisadi inkişaf insan amilindən asılı olduğu kimi, onun nəticələri də insan kapitalının formalaşmasına xidmət edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyasının güclü təməlləri gələcəkdə də etibarlı əllərdə olacaq. Sağlam və savadlı yetişdirilən gəncliyimiz, ölkəsinin maraqlarını hər şeydən üstün tutan insanlar gələcəkdə də bu xətti davam etdirəcək, onlara miras qalmış yola sadiq qalacaqlar.*

✍ **Əli CABBAROV**

## Təhsilə qayğı gələcəyə qayğıdır

### *Ötən il bu sahənin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib*

***Təhsilin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Paytaxt Naxçıvan şəhərində, rayon mərkəzlərində, ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində yeni məktəb binaları tikilir, mövcud binalar yenidən qurulur, şagirdlərin müasir dövrün tələbləri səviyyəsində təhsil almaları üçün hərtərəfli şərait yaradılır.***

Belə ki, yeni tikilən və ya yenidən qurulan təhsil ocaqlarının müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar və idman zalları ilə təmin olunmasına ciddi önəm verilir. Ötən il də muxtar respublikada bu istiqamətdə kompleks quruculuq tədbirləri həyata keçirilib. Şərur rayonunun Oğlanqala kəndində 576, Arbatan kəndində 234, Babək rayonunun Yarımca kəndində 342, Məzrə kəndində 270, Xəlilli kəndində 144, Ordubad rayonunun Baş Dizə kəndində 156, Culfa rayonunun Saltaq kəndində 306, Xanəgah kəndində 198, Gülüstan kəndində 156, Kəngərli rayonunun Şahtaxtı kəndində 594, Yurdçu kəndində 270, Şahbuz rayonunun Daylaqlı kəndində 168 şagird yerlik olmaqla, ümumilikdə, 3414 şagird yerlik 12 məktəb binası müəllim və şagirdlərin istifadəsinə verilib. Bu qayğıdan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyinə, Naxçıvan Dövlət Texniki Kollecinə və Ordubad Texniki Peşə və Sürücülük Məktəbinə də pay düşüb, həmin tədris ocaqlarının şagird, tələbə və müdavimləri yeni binalarda təhsil almaq imkanı qazanıblar. Naxçıvan şəhərində 640 şagird yerlik 3 nömrəli tam orta məktəbdə yenidənqurma işləri başa çatdırılıb.

Bu sahənin inkişafına göstərilən dövlət qayğısı, yaradılan hərtərəfli şərait öz bəhrələrini verir. Bu bəhrələr ali məktəblərə sənəd verən abituriyentlərin qazandıqları yüksək nəticələrdə özünü göstərir. Belə ki, 2016-cı ildə qəbul imtahanlarında iştirak edən məzunlardan 1737-si ali məktəblərin, 567-si isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb. Ali məktəblərə qəbul olunan məzunlardan 338-i imtahanlarda 500-dən çox bal toplayıb. Yüksək nəticə əldə edərək tələbə adını qazananlardan 4-ü ölkə başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar da hərtərəfli qayğı əhatəsindədirlər. 2016-cı il onlar üçün də uğurlu olub. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasında böyük əhəmiyyətə malikdir.

Bütün bunlar bir strateji məqsədə söykənir: təhsil olmadan savadlı, hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirmək mümkün deyil. Ona görə də illərdir ki, muxtar respublikamızda bu sahənin inkişafı prioritet vəzifəyə çevrilib.

**Xəbərlər şöbəsi**

İcmal

# Ulu öndərimizin yoluna sədaqət, dövlət başçısının diqqət və qayğısı Naxçıvanda sosial-iqtisadi inkişafın davamlı xarakter almasına rəvac verib

***Azərbaycanın bu gününü yaşadan, gələcəyi üçün güclü zəmin hazırlayan, respublikamızın milli intibahını təmin edən Heydər Əliyev yolu bu gün uğurla davam etdirilir. Dünyada baş verən aramsız geosiyasi gərginliklərin və qlobal risk amillərinin şaxələnməsi, maliyyə böhranının yeni məcrada inkişafı fonunda ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf tendensiyasının qorunub saxlanılmasının, yeni-yeni nailiyyətlərin əldə edilməsinin əsas səbəbi də budur.***

Bu gün yüksək iqtisadi potensiala malik olan Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu elmi əsaslara söykənən inkişaf strategiyası uğurla davam etdirilir, qədim diyar əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada quruculuq işləri geniş vüsət alıb, dinamik iqtisadi inkişafa nail olunub, infrastruktur yenilənib, enerji və ərzaq təhlükəsizliyi təmin edilib, etibarlı müdafiə sistemi yaradılıb. Bu gün ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşdurur, ölkəmiz Prezident cənab İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir.

Ümummilli lider bütün həyatı boyunca vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ona görə də qədirbilən naxçıvanlılar dahi şəxsiyyətin ölkəmiz naminə gördüyü bütün işləri heç vaxt unutmur, Onun işıqlı xatirəsini daim ürəklərində yaşadırlar.

Ötən il dekabrın 12-də Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib. Minlərlə insan Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsini ziyarət edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsini ehtiramla yad edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsini ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz ehtiramlarını bildiriblər.

Gələcəyimizi qorumağın, yəni milli ruhu yaşatmağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilik ənənələrinin qorunması, onun yaşadılmasıdır. Tarixi prosesləri, o cümlədən sovet dövründə və müstəqillik illərində muxtar respublikadakı ictimai münasibətləri, bir sıra digər amilləri nəzərdən keçirdikdə bir daha əminlik yaranır ki, dövlətçilik ənənələri qədim diyarın sakinləri tərəfindən daim qorunub saxlanılıb. Ona görə də bu gün muxtar respublikada dövlət təhlükəsizliyinin təmini istiqamətində görülən məqsədyönlü tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin maddi-texniki bazası ilbəil gücləndirilir, əməkdaşlar üçün müasir iş şəraiti yaradılır.

Dekabrın 2-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon İdarəsinin inzibati binası istifadəyə verilib.

Böyük tarixə və zəngin mədəniyyətə malik olan Naxçıvan torpağı görkəmli sərkərdələr, siyasətçilər, ziyalılar, mütəfəkkirlər, yazıçı və şairlər yetişdirib. Qədim diyarda həmin tarixi şəxsiyyətlərin, mütəfəkkirlərin irsinə böyük diqqət göstərilir, onların yubileyləri yüksək səviyyədə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il fevralın 15-də "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Tədbirlər Planı təsdiq olunub, görkəmli yazıçı-publisist və pedaqoqun yubileyi muxtar respublikada silsilə tədbirlərlə qeyd olunub.

Dekabrın 3-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Eynəli bəy Sultanovun 150 illik yubiley tədbiri keçirilib.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni inkişaf dövrünü yaşayır. Bütün sahələrdə uğurlu islahatlar həyata keçirilir, kompleks quruculuq işləri aparılır. Yaşayış məntəqələrinin inkişafı, yeni iş yerlərinin açılması insanların rahat yaşayışını təmin edib. Uğurlu sosial islahatlar və aparılan quruculuq işləri Naxçıvan Muxtar Respublikasının da şəhər, qəsəbə və kəndlərini abad və müasir görkəmə qovuşdurub. Bu işlər Babək rayonunda da uğurla davam etdirilir. Dekabrın 9-da Hacıvar kəndində əsaslı şəkildə yenidən qurulan kənd yolu, müasir kənd və xidmət mərkəzləri istifadəyə verilib. Həmin gün Badaşqan kəndində xidmət mərkəzinin açılışı olub. Bu gün Hacıvar və Badaşqan kəndlərinin əhalisinin rahat yaşaması və işləməsi üçün bütün şərait vardır.









Ali Məclisin Sədri muxtar respublikamızda aparılan quruculuq, abadlıq işləri barədə danışarkən deyib: ***"Bütün bunlar ölkəmizdə ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan sabitliyin və əsası qoyulan iqtisadi inkişafın Azərbaycan Respublikasının Prezidenti tərəfindən layiqincə davam etdirilməsinin nəticəsidir. Eyni zamanda bu işlər ölkəmizdə insanlara göstərilən qayğının və dövlət-xalq birliyinin daha bir ifadəsidir".***

Naxçıvanın qədim tarixi və zəngin mədəniyyəti xalqımızın özünəməxsus milli dəyərlər sisteminin formalaşmasında əhəmiyyətli rol oynayıb. Bu mənada, doğma diyarımızın tarixinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və adət-ənənələrinin, bu ərazidə formalaşan milli dəyərlər sisteminin elmi faktlar əsasında öyrənilməsi qarşıda duran əsas vəzifədir. Naxçıvana həsr olunmuş materialların qorunub saxlanması, tədqiq və təbliğ olunması məqsədilə 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması bu baxımdan tarixi hadisədir. Hazırda mərkəzin ümumi kitab fondunda 3 min 769 nüsxə çap materialı vardır. Ötən dövr ərzində mərkəzin arxiv fondu Naxçıvanşünaslığa dair arxiv materialları ilə zənginləşdirilib.

Dekabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılmasının 5 illiyi münasibətilə tədbir keçirilib, mərkəzdə yaradılan yeni fondlara baxış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tədbirdə iştirak edib.

Ötən il müstəqilliyinin 25 illiyini təntənəli şəkildə qeyd edən Azərbaycan Respublikası müstəqil ölkə kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutub, hərtərəfli inkişaf edib. Dünyanın bir sıra ölkələrində çox ciddi problemlər baş qaldırsa da, qarşıdurmalar olsa da, ölkəmizdə insanlar rahat yaşayır, davamlı inkişaf və sabitlik vardır. Bu gün Azərbaycan vətəndaşları birmənalı şəkildə dövlət başçısının yürütdüyü daxili və xarici siyasəti qətiyyətlə dəstəkləyir, Vətənimizin inkişafı naminə inamla çalışırlar. Ölkəmizin inkişafında fərqlənən insanların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir.

Dekabrın 27-də – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası medallarının, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri ölkəmizin inkişafındakı xidmətlərə görə təltif olunanlara təşəkkür edərək deyib: ***"Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik və inkişaf təmin edilmiş, dövlət müstəqilliyimiz qorunub saxlanmışdır. Ötən dövrdə ölkə Prezidenti tərəfindən həyata keçirilən tədbirlər Azərbaycanı daha da irəliyə aparmışdır. Artıq Azərbaycan təsdiq etmişdir ki, müstəqil yaşayan ölkədir. Bütün bunlar ölkəmizdə həyata keçirilən düzgün siyasətin, eləcə də dövlət-xalq birliyinin və insanların zəhmətinin nəticəsində mümkün olmuşdur".***

Ötən ilin son günlərində Naxçıvan Muxtar Respublikasının sakinləri üçün əlamətdar bir hadisə baş verib. Dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayıb.

Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması Azərbaycan ilə İran arasında əlaqələrin inkişafının bir göstəricisi olmaqla yanaşı, eyni zamanda xalqlar arasında yaxın münasibətlərin daha da dərinləşməsi baxımından əhəmiyyətlidir. Belə ki, qatarın fəaliyyəti insanlarımızı bir-birinə daha da yaxınlaşdıracaq, gediş-gəliş artacaq, turizm və humanitar sahədə əməkdaşlıq genişlənəcəkdir.

Bu gün ticarət-iqtisadi əlaqələrin genişlənməsinin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasından İran İslam Respublikasına müxtəlif sənaye və ərzaq məhsulları, elektrik enerjisi ixrac olunur. Öz növbəsində İrandan da ərzaq, tikinti materialları və digər mallar alınır. Şübhəsiz ki, ticarət-iqtisadi əlaqələrin genişlənməsində sahibkarların müstəsna rolu vardır. Son illər nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, keçirilən biznes sərgilərində hər iki tərəfdən sahibkarların iştirakı, turist səfərlərinin artması əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoyub. Təkcə 2016-cı ildə İranla Naxçıvan Muxtar Respublikası arasındakı Culfa və Şahtaxtı keçid məntəqələrindən hər iki tərəfdən 450 minə yaxın vətəndaş istifadə edib.

Dekabrın 29-da Naxçıvan Biznes Mərkəzində keçirilən Azərbaycan-İran Biznes Forumunda hər iki tərəfdən sahibkarların iştirakı qarşılıqlı əməkdaşlıq üçün yeni imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi biznes forumda iştirak ediblər.

Həmin gün "Duzdağ" otelində Azərbaycan-İran hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının yekun iclası keçirilib. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 11-ci iclasının yekun protokolu imzalanıb. Protokola əsasən hər iki ölkə arasında ticarət, iqtisadiyyat, sərhəd, sənaye, enerji, su məsələləri, nəqliyyat, dəmir yolu, rabitə, mədəniyyət və turizm, səhiyyə, kənd təsərrüfatı, sosial müdafiə, elm, təhsil, gənclər və idman sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi Duzdağ Fizioterapiya Mərkəzində olub, mərkəzin fəaliyyəti və burada insanlara göstərilən tibbi xidmətlə maraqlanıblar.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, Araz çayı üzərində derivasiyatipli Ordubad-Marazad Su Elektrik Stansiyası tikiləcəkdir.

Dekabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, hökumətlərarası komissiyanın həmsədri Mahmud Vaezi Ordubad-Marazad Su Elektrik Stansiyasının layihəsinə və stansiyanın tikiləcəyi əraziyə baxıblar.

Muxtar respublikada xüsusi diqqətə ehtiyacı olan insanlarla bayram günlərində həmrəylik nümayiş olunur, onlara sovqatlar aparılır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Psixi Xəstəliklər Dispanserinə gəlib, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

Ali Məclisin Sədri Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinin, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinin kollektivlərinə çətin və şərəfli işlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə 500-ə yaxın hədiyyə paketi paylanılıb, gətirilmiş ərzaq məhsulları anbarlara təhvil verilib.

Muxtar respublikamızda əsgər və zabitlərimizə böyük diqqət və qayğı göstərilir. Bayram günlərində əsgərlərlə görüşlərin keçirilməsi, onlara bayram sovqatlarının aparılması ənənə halını alıb.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına gəlib, əsgər və zabitlərlə görüşüb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının xəstəxanasında olub, burada müalicə olunan əsgərlərlə görüşüb, onlara göstərilən tibbi xidmətlə maraqlanıb.

Həmin gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının anbarına 5 tona yaxın ərzaq məhsulu – çörək, ət, şəkər tozu, qənd, yarma, qatılaşdırılmış süd, yumurta, o cümlədən yun corab, siqaret və şəxsi təmizlik vasitələri təqdim olunub, şəxsi heyətə 500-ə yaxın hədiyyə paketi verilib.

Muxtar respublikada hərbi hissələrin döyüş qabiliyyətinin yaxşılaşdırılması ilə yanaşı, zabit-gizir ailələrinin sosial məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Hərbi şəhərciklərdə yeni yaşayış binaları, sosial obyektlər, xidmət sahələri, məktəb binaları və uşaq bağçaları tikilərək istifadəyə verilir. Dekabrın 31-də "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində yeni uşaq bağçası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılışı bildirən lenti kəsib, binada yaradılan şəraitlə tanış olub.

*Ötən ayın mənzərəsinə nəzər yetirdikdə bir daha aydın olur ki, muxtar respublikada dövlət proqramlarının, infrastruktur layihələrinin reallaşdırılması quruculuq, abadlıq işlərinin davam etdirilməsinə, bütün istiqamətlərdə yeni-yeni uğurların qazanılmasına rəvac verib. Böyük quruculuq proseslərinin əsas hərəkətverici qüvvəsi olan insan amilinin, mənəviyyat faktorunun, məsuliyyət duyğusunun, dövlətə, dövlətçiliyə sarsılmaz sədaqətin əsas prinsiplər səviyyəsində formalaşması bu gün inkişafa dərin ictimai məzmun gətirib. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin işıqlı yoluna sədaqətin nəticəsində mümkün olub. Dövlət başçımızın blokada vəziyyətində yaşayan qədim diyara göstərdiyi böyük diqqət və qayğı sosial-iqtisadi inkişafın davamlı xarakter almasına rəvac verib.*

**Rauf ƏLİYEV**

# Tumbul kəndi muxtar respublikanın müasir yaşayış məntəqələri sırasına qoşulub



***Bir neçə il əvvəl Babək rayonunun inzibati ərazi bölgüsünə daxil olan bir neçə yaşayış məntəqəsi Naxçıvan şəhərinin tabeliyinə verildi. Tumbul kəndi də bu yaşayış məntəqələrindən biri idi.***

Bu gün Naxçıvan şəhərinin Tumbul kəndi müasir yaşayış məntəqələri sırasındadır. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əcəmi Tağıyev deyir ki, yeni il onlar üçün düşərli illərdən biridir. Belə ki, yanvar ayının 5-də kənddə bayram əhval-ruhiyyəsi yaşanıb. Həmin gün kənddə bir neçə obyektin açılışı olub. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi üzrə kənddə içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. İki kilometrlik kənddaxili avtomobil yoluna asfalt örtük salınıb, beton kanal çəkilib və 5 su keçidi qoyulub. Kənddə rabitə xətləri də yenilənib, 2740 metrlik müxtəlif tutumlu kabel xətti, 800 metrlik elektrik xətti, 230 metr yeraltı elektrik xətti çəkilib, qaz xətlərində təmir işləri aparılıb. Bütün bunlar 2003 nəfər sakini olan Tumbula böyük dövlət qayğısının ifadəsi kimi dəyərləndirilib.

Həmin gün istifadəyə verilən obyektlərdən biri yeni kənd mərkəzidir. Binada rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, polis sahə məntəqəsi, baytarlıq məntəqəsi, statistika otağı, feldşer-mama məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı fəaliyyət göstərir. Kənddə müasir rabitə sistemi yaradılıb, fiber-optik xətt çəkilib, 512 yerlik ATS quraşdırılıb və poçt bölməsi fəaliyyətə başlayıb.

Əcəmi Tağıyevlə binadakı iş otaqlarını gəzirik. Mərkəzdə feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılıb. Məntəqədə çalışan tibb bacısı Afət İbrahimova deyir ki, Tumbulda bu səhiyyə müəssisəsinin istifadəyə verilməsi kənd camaatına göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsinə şərait yaradıb. Məntəqənin kollektivi bu şəraitdən səmərəli istifadə etməyə səy göstərir. El ağsaqqalı Şəmil İbrahimov Tumbula göstərilən bu qayğını yüksək dəyərləndirir, belə xeyirxah tədbirləri həyata keçirənlərə uzun ömür, cansağlığı arzulayır. Deyir ki, Naxçıvan şəhərinin, necə deyərlər, bir addımlığında yaşayırlar. Kəndə 15-20 dəqiqədən bir marşrut işləyir. Yəni hansısa problemi həll etmək bir o qədər çətin deyil. Bununla belə, kənddə bu işlərin görülməsi o deməkdir ki, muxtar respublika sakinləri, o cümlədən tumbullular hərtərəfli qayğı əhatəsindədirlər. Ölkəmiz iqtisadi cəhətdən gündən-günə inkişaf edir. Bu da kəndlərimizin simasını dəyişdirməyə, müasirləşdirməyə imkan verir. Kənd camaatına o qalır ki, qurulub-yaradılanları qorusunlar, gələcək nəsillərə ərməğan etsinlər.

* * *

Yanvarın 5-də kənddə Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin yeni binası da istifadəyə verilib. 376 şagird yerlik məktəbdə 4-ü elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, müəllimlər otağı, 2 şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. 2016-2017-ci tədris ilində məktəbin birinci sinfinə 25 şagird qəbul edilib. Məktəbin müəllim və şagirdlərinin istifadəsinə zəngin fondu olan kitabxana verilib. Burada 3476 dərslik və 3340 bədii ədəbiyyat olmaqla, 6816 kitab vardır.

Məktəbdə tədrisin müasir texnologiyalar əsasında qurulması diqqətdə saxlanılıb, 42 kompüter quraşdırılaraq internetə qoşulub.

Yeni təhsil ocağında müəllimlərlə həmsöhbət oluruq. Nağı Nağıyev deyir ki, Tumbulda 1920-ci ildə birsinifli məktəb yaradılıb. Bu məktəbə Mahmud Nağdəliyev rəhbərlik edib. Onun təşəbbüsü ilə bir neçə il sonra birsinifli məktəb ibtidai, 1976-1977-ci tədris ilində orta məktəbə çevrilib. Məktəb yaradılanda 1902-ci ildə tikilmiş şəxsi bir evdə fəaliyyət göstərib. 1988-ci ilədək uyğunlaşdırılmış 2 şəxsi evdən istifadə olunub. Həmin il Tumbulda yeni məktəb binası tikilib.

Söhbətə məktəbin müəllimi Nuranə Abbasova qoşulur. Və bizə iki fotoşəkil göstərir. Bu şəkillərdən biri yeni, digəri isə əvvəlki məktəb binasının şəkilləridir. Nuranə müəllimə deyir ki, bunları yadigar kimi saxlayacaq. Uşaqlara göstərəcək ki, o və həmyaşıdları belə binada təhsil alıblar. Qoy bugünkü uşaqlar oxuduqları məktəblə o dövrdəki məktəbi müqayisə etsinlər, nəticə çıxarsınlar. Görsünlər ki, dövlətimiz təhsilin inkişafına necə böyük önəm verir.

Müəllim İradə Zamanovanın söhbəti: – Tumbul kəndində əvvəlki illərdə mövcud olan məktəb binaları dövrün tələblərinə cavab verməsə də, şagirdlərin yaxşı oxuması, biliklərə yiyələnməsi üçün müəllimlər üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıblar. Tumbul məktəbinin yetirmələri içərisində çoxlu fəlsəfə və elmlər doktorları var. Mərhum Səkinə Hüseynova muxtar respublikada filologiya üzrə dissertasiya müdafiə edən ilk qadınlardan biri idi. Bu gün məktəbin pedaqoji kollektivi çalışır ki, dövlətimizə və dövlətçiliyimizə sadiq vətənpərvər gənclər yetişdirməklə bərabər, bu məktəbdə yaradılmış ənənələri davam etdirsinlər.

Məktəbin müəllimi Zinyət Hacıyeva da sevincini bizimlə bölüşür: – Binanın açılışı günü Ali Məclisin Sədri elektron lövhəli sinifdə Bəhruz Kəngərli Muzeyi ilə muxtar respublikanın 204 məktəbi arasında keçilən distant dərsi izlədi, şagirdlərin iştirakı ilə muzeylərdə açıq dərslərin keçilməsini tapşırdı. Çalışacağıq ki, bizə göstərilən etimadı öz işimizlə doğruldaq. Göstərilən qayğıya təhsildə qazandığımız yüksək nailiyyətlərlə cavab verək.

* * *

Son illər muxtar respublikanın kənd və qəsəbə yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq tədbirləri çərçivəsində xidmət mərkəzləri də inşa olunur. Məqsəd isə ondan ibarətdir ki, yaşayış məntəqələrinin sakinləri tələbatlarını ödəmək üçün digər yerlərə üz tutmasınlar. Yanvar ayının 5-də Tumbulda da xidmət mərkəzi istifadəyə verilib. Burada 9 nəfər işlə təmin olunub. Kənd sakinləri xidmət mərkəzindəki bərbərxana, dərzi, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazalarının fəaliyyətindən razılıq edirlər.

* * *

Söhbətimizin əvvəlində dedik ki, kənddə içməli su və kanalizasiya şəbəkəsinin də açılışı olub. Layihə çərçivəsində 18 kilometrdən artıq içməli su və 15 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi çəkilib, mənzillərdə sayğaclar quraşdırılıb. Kənddə, ümumilikdə, 503 abonent içməli su və kanalizasiya şəbəkəsinə qoşulub.

İçməli su xəttinin çəkilişi tumbulluların ekoloji cəhətdən təmiz su ilə təmin olunmasına imkan verib. Məlumat üçün bildirək ki, vaxtilə Tumbul kəndində artezian quyusu qazılıb, buradakı kəhriz bərpa edilib. Ancaq həmin su mənbələri bu yaşayış məntəqəsinin içməli suya olan tələbatını tam ödəməyib. Artıq bu problem də öz həllini tapıb.

Kənd sakinləri Rafael Abbasov, Məmməd İbrahimov dedilər ki, Tumbul muxtar respublikanın əkinçilik və heyvandarlıqla məşğul olan yaşayış məntəqələrindən biridir. Onların özlərinin müxtəlif kənd təsərrüfatı texnikaları, 20 hektara yaxın əkin sahələri var. Bu texnikalarla kənd adamlarının köməyinə gəlirlər. Öz əkin sahələrində taxılçılığı, əkinçiliyin müxtəlif sahələrini inkişaf etdirirlər. Heyvandarlıqla məşğul olurlar. Bunun üçün dövlətimiz torpaq mülkiyyətçilərinə güzəştli kreditlər verir, onların texnika, qiymətli toxum sortları ilə təminatına köməklik göstərir. Bütün bunlar isə kənd adamlarını torpağa daha sıx tellərlə bağlayır. Bu gün Tumbulda istifadəyə verilən yeni obyektlər, içməli su və yeni kanalizasiya şəbəkəsi kənd adamına daha bir qayğının ifadəsidir.

Kənd ağsaqqalı, uzun müddət məktəb direktoru işləmiş Tağı Məmmədovun da sevincinin həddi-hüdudu yoxdur. Çünki heç vaxt yaşadığı kəndə belə qayğı göstərilməyib. Bu qayğı üçün Tağı müəllim kənd adamları adından bir daha dövlətimizə minnətdarlığını bildirdi.

* * *

*Yazının sonunda "Tumbuldan Naxçıvan şəhərinə qayıdarkən" ifadəsini işlətmək istədim. Elə o anda bu ifadənin səhv olduğunu düşündüm. Çünki Tumbul bu gün paytaxt şəhərimizə qovuşub – müasir küçələri, yaraşıqlı həyətləri, inzibati binaları, burada fəaliyyət göstərən emal və istehsal müəssisələri ilə.*

**Muxtar MƏMMƏDOV**



Yeni bina



Əvvəlki bina

Tumbul kəndində məktəb

# Muxtar respublikada müasir yol-nəqliyyat infrastrukturu yaradılıb

*İqtisadi inkişafın başlıca şərtlərindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Əgər abad yol yoxdursa inkişafdan, inkişaf yoxdursa, yolların abadlığından bəhs etmək mümkün deyil. Bu vacib amilə xüsusi diqqət yetirən ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, **"Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir".** Dahi şəxsiyyətin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra əldə olunan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yol-nəqliyyat kompleksinin də yenidən qurulmasına, müasir avtomobil yollarının çəkilişinə əlverişli şərait yaradıb.*

Dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasi xətt ölkəmizdə, eləcə də muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yenilənməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına öz töhfəsini verib. Elə buna görədir ki, muxtar diyarın hansı səmtinə üz tutsaq, rahat və abad yollar hər kəsi mənzil başınadək müşayiət edəcək. Son illərdə bu sahədə görülən işlər, xüsusilə magistral avtomobil yollarının yenidən qurulması Naxçıvanın tranzit imkanlarını xeyli artırıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, uzunluğu 34 kilometr olan Naxçıvan-Culfa və uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yollarının müasir tələblər səviyyəsində yenidən qurularıq istifadəyə verilməsi nəqliyyat daşımalarında yeni mərhələnin başlanmasına səbəb olub. Ölkə başçısı Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur. Artıq burada yerli şirkətlər vardır ki, bu cür yolları çox keyfiyyətlə tikə bilirlər".***

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Belə ki, ötən dövrdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq 5 yaşayış məntəqəsini əhatə edən Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 20 yaşayış məntəqəsini əhatə edən Çeşməbasar-Boyəhməd, 13 kəndi əhatə edən Hacıvar-Vayxır-Sirab və 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istismara verilib. Muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinə, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olub.



2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar həyata keçirilən kompleks tədbirlər muxtar respublikada mövcud olan 274 kilometr dövlət əhəmiyyətli və 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında qarlı-çovğunlu günlərdə belə, hərəkətin intensivliyini tam təmin edib.

Müasir yol-nəqliyyat sisteminin qurulması 2016-cı ildə də uğurla davam etdirilib. Belə ki, ötən il muxtar respublika üzrə 62 kilometrlik yeni asfalt yollar salınıb, 5 körpü tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 may tarixli Sərəncamına əsasən, Babək rayonunun 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulmasının ikinci mərhələsi başa çatdırılıb. Bundan əlavə, əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yaxşılaşdırmaq məqsədilə Naxçıvan şəhərində avtomobil və ehtiyat hissələrinin satış mərkəzi və yeraltı qaraj tikilib. Hava nəqliyyatında infrastrukturun yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi tədbirləri çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanının daha bir terminalı istifadəyə verilib. Yenidənqurma tədbirlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artıb, aerovağzal binasından istifadə imkanları saatda 600 sərnişinə çatdırılıb.

*Müasir yol-nəqliyyat sisteminin yaradılması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikanın sosial-iqtisadi inkişafını özündə əks etdirməklə yanaşı, həm də regionun tranzit və turizm potensialını artırır, Naxçıvanı beynəlxalq tədbirlərin keçiriləcəyi cazibədar məkana çevirir.*

**Səbuhi HƏSƏNOV**

*Təbii sərvətlərimiz*

# Şəfa suları

***Qədim Naxçıvan təbii sərvətlərlə zəngin bir diyardır. Dünyada müqayisə ediləcək ikinci elə bir yer yoxdur ki, Tanrı ərazicə kiçik diyarda bu qədər möcüzə yaratsın. Hələ orta əsr səyyah və coğrafiyaşünaslarının əsərlərində bu qədim diyarın ərazisində olan mineral bulaqlar haqqında məlumatlar yer alıb. Alimlər tərəfindən “Mineral bulaqlar muzeyi” adlandırılan Naxçıvanda bu “muzeyin” hələlik 250 “eksponatı” aşkarlanıb.***





Naxçıvanın rəmzinə çevrilən, bu gün həm süfrə, həm də müalicəvi su kimi istifadə edilən mineral bulaqlardan bir neçəsi barədə bəhs etmək üçün mütəxəssis sözünə ehtiyac duyduq. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun aparıcı elmi işçisi, kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova ilə görüşüb həmsöhbət olduq. Badamlı, Sirab, Darıdağ, Gülüstan, Nəhəcir, Əshabi-Kəhf suları barədə onun fikirlərinə, həmçinin min illərdir ki, insanların inam ocağına çevrilən Gömür bulağı, Dəmirli yaylağındakı müalicəvi sular barədə Fizzə Məmmədovadan və yaşlı sakinlərdən öyrəndiklərimizə əsasən bu yazını araya-ərsəyə gətirməyə çalışdıq.

### *Badamlı adı var, nə şirin dadı var*

Şahbuz rayonunun eyniadlı kəndindən 3 kilometr cənub-qərbdə, 28 bulaqdan çağlayan “Badamlı” mineral suyu tədqiqatçıların fikrincə, dəniz səviyyəsindən 1274 metr yüksəklikdəki bir ərazidə on doqquzuncu əsrin sonlarında yer qatının çatlaması nəticəsində üzə çıxıb. Bu yaşayış məskəninin yaşlı sakinləri mineral su yatağının “Badamlı” adlandırılmasını badam bağlarına yaxın yerdə aşkar edilməsi ilə əlaqədar olduğunu söyləyirlər.

Badamlı suyunun ilk dəfə istehsalına 1947-ci ildə kənddə yaradılan kiçik müəssisədə başlanılıb. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müəssisənin fəaliyyəti genişləndirilib, istehsal gücü 18 min butulkaya çatdırılıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, iqtisadi tənəzzül bu müəssisənin də fəaliyyətinin dayandırılmasına səbəb olub.

2004-cü ildə özəlləşdirilən müəssisədə keyfiyyətli məhsul istehsalına başlanılıb. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Beləliklə, tərkibində olan bir sıra mikroelementlərə görə qiymətli təbii müalicə vasitəsi hesab edilən – immunitetin zəifləməsi, tez-tez infeksiyalara yoluxma, müxtəlif orqanların, o cümlədən dərinin iltihabi prosesləri zamanı müalicəvi əhəmiyyət kəsb edən, həmçinin tərkibindəki sink elementinə görə ateroskleroz, ürək xəstəlikləri, xərçəng, artritlər, diabet, mədə yarası, bronxial-astma, pnevmoniyalar, bruselyoz xəstəliyi zamanı da faydalı olan “Badamlı” mineral suyu hazırda nəinki ölkəmizdə, ölkəmizin hüdudlarından kənarda da alıcıların rəğbətini qazanıb.

### *Hər damlasında həyat var*

“Sirab” mineral suyu Babək rayonunun Sirab kəndi ərazisində Kəlbəağıl vadisində 250 metr dərinlikdən qaynayıb üzə çıxır. Xalq sirabın möcüzəvi xassələrinə görə onu “sirli su” adlandırıb. Mədə-bağırsaq xəstəlikləri zamanı şirəqovucu xassələrə malik olan sirab tədqiq edildikdən, tərkibi araşdırıldıqdan sonra aydın olub ki, bu mineral su aerozol şəklində tənəffüs yolları xəstəliklərinə və allergik xəstəliklərə də müsbət təsir edir, həzm yolları, qaraciyər, öd kisəsi və böyrək xəstəlikləri, mübadilə pozğunluqları zamanı tətbiq edildikdə faydalı olur.

Sirab kəndinin yaşlı sakini Orucəli Fərzəliyev suyun tədqiq edilməmişdən əvvəl insanlar tərəfindən necə istifadə olunması barədə söz salaraq dedi ki, çox keçmişdən Kəlbəağıldan çıxan bulaq, həmçinin onun yaxınlığında olan şorsu insanların şəfa ocağına çevrilib. Yay aylarında bu ərazidə “iynə atsaydın, yerə düşməzdi”. Nəqliyyatın olmadığı dönəmlərdə atla, ulaqla müxtəlif yerlərdən buraya insanlar gəlib şorsudan vanna qəbul edir, həmçinin qablara doldurub evlərinə aparırdılar.

Sirab suyunun istehsalına ilk dəfə 1950-ci ildə primitiv üsulla kiçik bir sexdə başlanılıb. Sirabın dünya bazarına çıxarıldığı illər ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir və həmin dövrdə zavodun tam gücü ilə işləməsi təmin olunmuşdu. Amma ötən əsrin 90-cı illərində baş verən məlum hadisələr, muxtar respublikanın blokadaya alınması bu zavodun fəaliyyətini də, demək olar ki, iflic vəziyyətinə saldı. Muxtar respublikamızda son iyirmi ildə bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər 2003-cü ildə Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətinin də yaradılmasına stimul verdi. Müasir texnoloji tələblərə və standartlara cavab verə biləcək avadanlıqların quraşdırıldığı zavodda müxtəlifhəcmli 19 çeşiddə məhsul istehsal olunur. Bu gün dünya ölkələrində rəğbətlə qarşılanan “Sirab” mineral suyu müxtəlif ölkələrdə keçirilən beynəlxalq sərgilərdə dörd qızıl və bir gümüş medal qazanıb. Həmçinin dəfələrlə “İlin brendi”, “Biznesdə uğur” mükafatlarına layiq görülüb. “Mükəmməl ləzzət” mükafatını qazanması da “Sirab” mineral suyunun yüksək keyfiyyətinə dəlalət edir və bunun nəticəsidir ki, hazırda Sirabın dünyanın bir çox ölkələrdə kifayət qədər alıcısı var.

### *Sirli-sehrli bulaqlar içində bunlar da var*

Fizzə Məmmədova digər müalicəvi su mənbələri haqqında da məlumat verərək bildirdi ki, “Gülüstan” mineral suyu Culfa rayonunun ərazisində, Gülüstan kəndindən 2,5 kilometr aralı, Əlincəçay məcrasındadır. Bu mineral su mənbəyi 1962-ci ildə qazılıb və dərinliyi 135 metr olan quyudan çıxır. Su karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-natriumlu-kalsiumlu-maqneziumludur. Tərkibi Rusiyanın “Kislovodsk” suyu ilə eynidir. İnsanlar bu sudan mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə ediblər.

Əshabi-Kəhf mineral su yatağı Babək rayonu ərazisində, Əshabi-Kəhf ziyarətgahına gedən yolda, eyniadlı dağın ətəyindədir. Hər 15 dəqiqədən bir qaynayıb köpüklənir. Su radonlu, karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu-sulfatlı, natrium-lu-kalsiumludur. Rusiya Federasiyasındakı “Pyatiqorsk” suyunun analoqudur. Bu su sinir, ürək-damar və revmatizm xəstəliklərinin müalicəsində faydalıdır.

Nəhəcir bulağı Culfa rayonunun ərazisində, Nəhəcir kəndi yaxınlığında, dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir. Su karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı, natriumludur. Kimyəvi tərkibinə görə “Yesentuki” tipli olub, mədə-bağırsaq xəstəliklərində əvəzolunmaz vasitədir. Sinir və əsəb xəstəlikləri, eyni zamanda dişlərin mina qatının möhkəmləndirilməsində geniş istifadə edilir. Bu su da 15 dəqiqədən bir qaynayıb üzə çıxır. Təxminən, 5 metr hündürlüyə yüksəlir, sonra getdikcə mənbəyinə qayıdıb sakitləşir.

Naxçıvanın müalicəvi suları içərisində bir müalicəvi su da var. Bu su Culfa rayonunun Ləkətağ kəndindən Dəmirli yaylağı istiqamətində yolun sol tərəfində kiçik qayanın sinəsində yerləşir. Çox qəribədir ki, bu su da 15 dəqiqədən bir qaynayıb üzə çıxır, köpüklənir, quyudan ətrafa yayılır. Və sonra sakitləşib yenidən məcrasına qayıdır. Qayanın üzərinə qırmızıtəhər naxışlar yayılır, bu isə onun tərkibində müəyyən qədər dəmirin olması ilə əlaqədardır.

Bu üç bulağın xüsusiyyətlərinin eyni olmasını Fizzə Məmmədova onların tərkibinin və formalaşmasının yaxınlığı ilə izah edir: “İnfiltrasiya tərkibli bu üç su mənbəyinin qarşılıqlı əlaqəsi onların növbə ilə yer səthinə çıxmasına şərait yaradır”.

Şahbuz rayonunun Gömür kəndi ərazisində qərinələrlə yaşı olan müalicəvi əhəmiyyətə malik “Şorsu” deyilən şəfa mənbəyindən də istifadə edib xeyrini görənlər az deyil. El arasında bu suya “Dəri suyu” da deyilir.

*Bir sözlə, Uca Yaradanın Naxçıvan torpağına bəxş etdiyi nemətlər, mineral sərvətlər çoxdur. Baxmayaraq ki, ionların sirli birləşməsindən əsrarəngiz və təkrarsız “şəfa qaynağı” adlanan mineral suların bu gün az bir hissəsindən istifadə olunur. Dünya alimlərinin bir araya gəlib bir damlasını belə, sintez edə bilmədikləri qədər sirli olan bu sularımız onlarca dərman preparatlarını əvəz etməyə qadirdir...*

(Ardı var)

**Hafizə ƏLİYEVA**

*Estetik tərbiyə insanları gözəllik aləminə yaxınlaşdırır, estetik zövqlər yaradır, gözəlliyi görmə, qavrama, dərk edərək qiymətləndirmə bacarığı formalaşdırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.*

# Estetik Tərbiyə Mərkəzi uşaqlarda estetik zövq formalaşdırır

Estetik tərbiyənin bünövrəsi ailədə qoyulur. Bu mövzuda oxuduğum bir mənbədə bu fikir belə açıqlanır: “Ailə gözəlliyin, insan zövqünün ilk məktəbi, ana laylası uşaqların ilk nəğməsidir. Ailədəki səliqə-sahman, təmizlik, uşaq oyuncaqları, ev avadanlığı və əşyaların gözəlliyi, valideynlərin oxuduğu mahnı və şeirlər, danışılan nağıllar, təbiət gəzintiləri – bütün bunlar kiçik yaşlardan başlayaraq uşaq zövqünü formalaşdırır. Buna görə də valideynlər uşaqlarına qarşı laqeyd olmamalı, övladlarının estetik zövqünü formalaşdırmaq üçün onlara vaxt ayırmalıdırlar”.

Qeyd olunmalıdır ki, məktəbdə tədris edilən dərslərin, demək olar ki, hamısında estetik tərbiyə imkanı var. Bir sıra fənlər isə bilavasitə estetik tərbiyə və təliminə xidmət edir ki, rəsm, musiqi və nəğmə, təsviri incəsənət və sair bunların sırasındadır. Bəzi orta məktəblərdə bu dərslərə həssaslıqla yanaşılmır, onlar ötəri şəkildə tədris olunur. Uşaqların estetik tərbiyəsinin formalaşması üçün vacib olan fənlərin tədrisi işində bəzi müəssisələrin böyük rolu var. Bu sırada estetik tərbiyə mərkəzlərinin üzərinə mühüm vəzifələr düşür. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi də öz işini bu istiqamətdə qurmağa səy göstərir.

1990-cı ildə əsası qoyulmuş bu mərkəz əvvəllər Naxçıvan şəhərindəki Uşaq-gənclər yaradıcılıq mərkəzinin binasında fəaliyyət göstərib, 2004-cü ildən isə ayrı binada öz işini davam etdirir. Hazırda burada 4 kabinet – təsviri incəsənət, musiqi təhsili və tərbiyəsi, dekorativ-tətbiqi sənət, kütləvi tədbirlər kabineti və onların hər birinin nəzdində bir neçə studiya var. Məktəblilər dərsdən sonrakı vaxtlarda buraya üz tutub müxtəlif məşğələlərə qatılırlar.

Musiqi dərsləri şagirdlərin estetik tərbiyəsində əsas tədris fənlərindən biridir. O, şagirdlərin daxili aləmini zənginləşdirir, bədii zövqlərini, duyğularını, qavrayışlarını tənzimləyir, estetik dünyagörüşlərini genişləndirir. Musiqi, eyni zamanda insanın əhvalına, emosional vəziyyətinə də təsir edir. Bunu nəzərə alaraq məktəbdə musiqi məşğələlərinin təşkili diqqət mərkəzində saxlanılır. Belə məşğələlərdə məktəblilər həm də xalq musiqimizə yaxından bələd olur, görkəmli Azərbaycan və dünya bəstəkarları, onların yaradıcılığı haqda məlumatlar əldə edirlər.

Mərkəzdə uşaqların böyük maraq göstərdikləri incəsənət növlərindən biri də rəqsdir. O, uşaqları fəallaşdırır və eyni zamanda onlarda özünəinam hissi yaradır. Rəqs zamanı uşaqlar müəllimin öyrətdiyi rəqs elementlərini təkrarlamaqla həm də fiziki sağlamlıqlarını inkişaf etdirmiş olurlar. Digər məşğələlərlə müqayisədə rəqsə həvəs göstərən uşaqların sayı daha çoxdur. Mərkəzdə onlara mənəvi dəyərlərimizin bir parçası olan milli rəqslərimizin öyrədilməsinə üstünlük verilir.

Rəngarəng növləri olan rəssamlıq sənəti insanın mənəvi aləminə nüfuz edən ən güclü vasitələrdəndir. Rəsm çəkməklə bütün uşaqlar maraqlanır. Erkən yaşlarından onlar kağız üzərində müxtəlif cızma-qaralar edir və bundan xüsusi zövq alırlar. Rəsm onların görmə qavrayışını, bədii hisslərini, zövq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Bədii toxuculuq, bədii tikmə, aplikasiya, ağac üzərində oyma sənəti ilə yanaşı, mərkəzdə ötən ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovun rəhbərliyi ilə ağac üzərində yandırma sənəti də tədris edilir. Muxtar respublikada çox az rəsm həvəskarının məşğul olduğu ağac üzərində yandırma sənətinə uşaqlar xüsusi maraq göstərir, bu sənətin sirlərini öyrənməyə çalışırlar. Bundan başqa, onlar rəsm sərgilərinə aparılır, məşhur rəssamların yaradıcılıqları haqqında uşaqlara məlumatlar verilir.

Əmək və yaradıcı fəaliyyət ən gözəl zövq mənbəyidir. Belə məşğələlərdə də müəllimlər uşaqların hazırladıqları əl işlərinin xarici gözəlliyinə və səliqəli olmasına nail olmaqla onlarda estetik zövqün inkişafına kömək edirlər. Bu, təbiidir ki, bütün uşaqların hazırladığı hər hansısa bir əşya zövq oxşaya bilməz, lakin zamanla çox çalışaraq, tədricən, buna nail olmaq mümkündür. Azyaşlı uşaqlar ilk olaraq plastilindən müxtəlif fiqurlar, zamanla isə taxta, sap və sair kimi materiallardan əşyalar düzəltməyə başlayırlar.

Mərkəzdə keçirilən məşğələlərin keyfiyyətindən valideynlər də razılıqlarını bildirdilər. Məhz elə buna görədir ki, burada üzvlərin sayı get-gedə artır, çox az məktəbli ilə fəaliyyətə başlayan mərkəz hazırda 192 qrup və 1920 şagirdlə fəaliyyətini davam etdirir.

Qeyd edək ki, mərkəzdəki dərslərdə fiziki imkanları məhdud uşaqlar da iştirak edir. Onlar üçün həftəiçi günlər təyin edilib və onlarla fərdi şəkildə məşğul olunur.

Estetik tərbiyə insanlarda estetik yaradıcılıq qabiliyyətini inkişaf etdirməli, onlarda incəsənətin müvafiq sahələri üzrə bilik, bacarıq və vərdişlər yaratmalıdır. Estetik dünyagörüş uşaqları digər fənləri də dərindən öyrənməyə alışdırır və onları məktəbin ictimai həyatında yaxından iştirak etməyə istiqamətləndirir. Deməli, övladlarımızda estetik tərbiyəni formalaşdırmaqla hərtərəfli Azərbaycan gənci yetişdirmək yolunda ilk addımımızı atmış oluruq. Bu işdə üzərimizə düşən vəzifəni yerinə yetirmək hər birimizin borcudur.

**Fatma BABAYEVA**

### *İtmişdir*

Şahbuz rayonunun Biçənək kənd sakini Mədətli Bəhruz Şahkərim oğlunun adına olan AA-009697 nömrəli torpaq sahəsinin planı və ölçüsü və MH-0038603 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 25